

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 174 (21.835)

15 sentyabr 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Sentyabrın 14-də Bakıda, Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısı mərasimdə nitq söyləyib.

* * *

Sentyabrın 14-də Prezident İlham Əliyev Türkiyə Respublikasının enerji və təbii sərvətlər naziri Berat Albayrak ilə görüşüb.

* * *

Dövlətimizin başçısı sentyabrın 14-də Böyük Britaniyanın dövlət naziri Alan Dunkan ilə görüşüb.

* * *

Həmin gün Prezident İlham Əliyev Yaponiyanın xarici işlər nazirinin parlamentari müavini Manabu Hori ilə görüşüb.




## Dövlət qurumlarına yeni avtomobillər təqdim olunub



Sentyabrın 14-də Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinə 2, Dövlət Arxiv İdarəsinə 1, Kəngərli Rayon Məhkəməsinə 1, İqtisadiyyat Nazirliyinə 1 və Ordubad Rayon Baytarlıq İdarəsinə 1 ədəd "NAZ-Lifan" markalı xidməti avtomobil təqdim olunub.

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov çıxış edərək deyib ki, muxtar respublikada dövlət qurumlarının fəaliyyəti üçün lazımi şərait yaradılır, yeni inzibati binalar tikilərək istifadəyə verilir, onların maddi-texniki bazası möhkəmləndirilir. Bu tədbirlərin həyata keçirilməsində əsas məqsəd əhaliyə göstərilən xidmətin səviyyəsini yüksəltməkdir. Bu gün 5 dövlət qurumuna yerli istehsal olan "NAZ-Lifan" markalı xidməti avtomobillərin verilməsi də bu istiqamətdə görülən işlərin davamıdır. Yeni xidməti avtomobillər idarəetmədə işin keyfiyyətini daha da yüksəldəcək.

Qeyd olunub ki, Naxçıvan Avtomobil Zavodunun bu gün təqdim olunan "NAZ-Lifan-620" və "NAZ-Lifan X-60" modelləri yüksək keyfiyyəti və rahatlığı ilə seçilir. Bu da işin keyfiyyətinin artırılmasına öz töhfəsini verəcəkdir. Buna görə də dövlət qurumlarının əməkdaşları avtomobillərin düzgün istismarına fikir verməli, onlara vaxtında lazımi texniki qulluq göstərməlidirlər.

Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Səbuhi Məmmədov yeni avtomobillərin dövlət qurumlarında xidmətin keyfiyyətini yüksəldəcəyini, idarəetmədə səmərəliliyi artıracağını qeyd edib.

Kəngərli Rayon Məhkəməsinin hakimi Əhliman Xıdırov və Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin rəisi Mehman Məmmədov göstərilən qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq ediblər.

**"Şərq qapısı"**

## Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin Defektoloji bölməsinin Şərur və Ordubad rayonlarında filialları yaradılmışdır





2010-cu ildən fəaliyyətə başlayan Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzi sağlamlıq imkanları məhdud şəxslərin tədrisi və reabilitasiyası məqsədilə müxtəlif sosial xidmətlər göstərir. 2013-cü ildə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Defektoloji bölmə yaradılmışdır. Defektoloji bölmənin təşkilində əsas məqsəd muxtar respublikada yaşayan, zehni və nitq inkişafının ləngiməsi olan uşaqların reabilitasiyasını təmin etməkdir. Bölmənin təlim otağı elektron lövhə və digər tədris ləvazimatları ilə təmin edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən 15 sentyabr – Bilik Günü ərəfəsində Şərur və Ordubad rayonlarında bölmənin yeni filialları təşkil edilmişdir.

Yeni filialların təqdimatı ilə əlaqədar keçirilən tədbirlərdə əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov çıxış edərək deyib ki, filialların yaradılması muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqlara göstərilən yüksək dövlət qayğısının əyani ifadəsidir. Məşğələlərə cəlb edilən uşaqlar haqqında filialda və eləcə də regional informasiya mərkəzində məlumat bazası yaradılmışdır.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov çıxış edərək "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası, sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası ilə bağlı görülmüş işlər barədə ətraflı məlumat vermişdir.

Valideynlər yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildirmişlər.

Filiallar elektron lövhə və digər lazımi tədris vəsaitləri ilə təmin edilmişdir. Burada müvafiq kateqoriyadan olan sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası üçün məşğələlər təşkil olunacaqdır.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Meliorasiya və irriqasiya tədbirləri genişləndirilir



Su ehtiyatlarının səmərəli istifadəsi və su itkisinin qarşısının alınması diqqət mərkəzində saxlanılır. Bu ilin avqust ayında 7 kilometr torpaq kanal, 40 kilometr ara arxları, 5 kilometr kollektor lildən təmizlənmiş, 2 kilometr yeni suvarma boru xətti, 1 kilometr yeni içməli su xətti çəkilmiş, mövcud kaptaj və drenajlar təmir olunmuşdur.

Yeni torpaq sahələrini əkin dövriyyəsinə daxil etmək, su itkisinin qarşısını almaq üçün Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 400 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilərək 2116 metr suvarma boru xətti çəkilmiş, 230 hidrant quraşdırılmışdır.

Əhalinin içməli su təminatının yaxşılaşdırılması tədbirləri də davam etdirilmiş, Şərur şəhərində 1508 metr içməli su xətti, 3350 metr kanalizasiya xətti çəkilmişdir. Şahbuz şəhərindəki çirkab sutəmizləyici qurğunun tikintisi isə davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

## İstehlak bazarına nəzarət tədbirləri həyata keçirilir

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən aldığımız məlumata görə, cari ilin ötən dövrü ərzində 258, o cümlədən 66 ərzaq, 5 meyvə-tərəvəz, 1 ət satışı, 8 ətriyyat-kosmetika, 5 tikinti, 6 təsərrüfat, 2 taxıl və taxıl məhsullarının satışı, 62 ictimai iaşə, 92 təhsil müəssisəsinin iaşə obyekti və 11 istehsal müəssisəsində maarifləndirici istiqamətdə monitorinqlər aparılıb, qanun pozuntusuna yol vermiş təsərrüfat subyektləri barəsində qanunvericiliyə müvafiq tədbirlər görülüb. Həyata keçirilmiş tədbirlər nəticəsində mənşəyi məlum olmayan, saxlama müddəti ötmüş, keyfiyyət və təhlükəsizlik göstəriciləri normativ sənədlərin tələblərinə uyğun olmayan 6 min 348 manat dəyərində ərzaq və qeyri-ərzaq malları ticarət dövriyyəsindən çıxarılaraq məhv edilib.

İstehlakçıların hüquqlarının qorunması istiqamətində həyata keçirilən tədbirlərdən biri də süni qiymət artımının qarşısının alınması və qabaqlayıcı tədbirlərin görülməsidir. Belə ki, əhali tərəfindən daha çox istehlak olunan malların, o cümlədən ərzaq malları, tikinti materialları və tərəvəz məhsullarının orta bazar qiymətlərinin səviyyəsi, dinamikası və dəyişmə meyilləri barədə məlumatların toplanılması və təhlili məqsədilə muxtar respublikanın şəhər və rayonlarında monitorinqlər davam etdirilib, ümumilikdə, 2 min 728 adda, o cümlədən 1019 adda ərzaq və 1709 adda qeyri-ərzaq məhsullarının qiymətləri nəzarətdə saxlanılıb. Muxtar respublikada istehsal olunan və satılan ərzaq məhsullarının qiymətlərinin süni surətdə artırılmasının qarşısının alınması məqsədilə, həmçinin bir sıra ərzaq məhsulları istehsalçıları, iri ticarət obyektləri və bazarların rəhbərləri ilə müntəzəm olaraq görüşlər təşkil edilib.

Bundan əlavə, əhalinin artan tələbatının daha dolğun ödənilməsi, istehsalçıların öz məhsullarını birbaşa istehlakçılara çatdırması, istehlakçıların seçim imkanlarının artırılması məqsədilə ənənəvi bazarlarla müqayisədə daha ucuz qiymətə sənaye və kənd təsərrüfatı məhsullarının satış yarmarkaları təşkil edilmişdir. Yarmarka dövründə istehsalçılar tərəfindən istehlakçılara ümumi dəyəri 1 milyon 206 min 300 manat dəyərində 813 ton kənd təsərrüfatı və sənaye məhsullarının satışı həyata keçirilib. İstehlak bazarında dövriyyədə olan ərzaq məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin laborator şəraitdə qiymətləndirilməsi məqsədilə müasir cihaz və avadanlıqlarla təchiz edilmiş "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC-nin qida sınaq laboratoriyasının müvafiq qaydada "İSO-17025" standartı üzrə Latviya Respublikasının Milli Akkreditasiya Bürosu (LATAK) tərəfindən akkreditasiyadan keçirilməsi təmin olunub.

Məlumatda o da bildirilir ki, yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində aparılan dövlət nəzarətinin bir hissəsini də yerli istehsal və idxal məhsullarının orqanoleptik, fiziki-kimyəvi, mikrobioloji və toksikoloji göstəricilərinin yoxlanmasıdır. Bu məqsədlə 432 halda idxal, 1040 halda yerli istehsal mallarından nümunələr götürülərək "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC-nin laboratoriyasında təhlil olunub. Aparılmış analizlərin nəticələrinə əsasən 15 halda məhsulun keyfiyyət göstəricilərinin normativ-texniki sənədlərin tələblərinə cavab vermədiyi müəyyən edilib. Belə məhsulların istehsalçısı və idxalçısı barədə qanunvericiliyə uyğun müvafiq tədbirlər görülüb.

**✍ Səbuhi HÜSEYNOV**

# Ölkə ictimaiyyəti oxunması zəruri olan kitablar haqqında

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2017-ci il avqustun 28-də “Oxunması zəruri olan kitablar haqqında” Sərəncam imzalayıb. Sərəncam ölkə ictimaiyyəti tərəfindən maraqla qarşılanmış, ictimai xadimlər, jurnalistlər və ziyalılar kütləvi informasiya vasitələrində bununla bağlı fikirlərini bildirmiş, informasiya saytlarında və qəzetlərdə məqalələr dərc etmişlər. Həmin məqalələri təqdim edirik.***

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov avqustun 28-də “Oxunması zəruri olan kitablar haqqında” Sərəncam imzalayıb. Ali Məclis Sədrinin sərəncamı ictimaiyyət arasında və sosial şəbəkələrdə rəğbətlə qarşılanıb.*

*Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli mətbuata açıqlamasında məsələyə münasibət bildirib.*

## İsa Həbibbəyli: “Vasif Talıbovun sərəncamı kitaba yenidən qayıdışdır”

İsa Həbibbəyli Naxçıvan Muxtar Respublikasında təhsil islahatlarının ardıcıl olaraq həyata keçirildiyini vurğulayaraq deyib: “Muxtar respublika müasirtipli məktəb tikintisi problemini çoxdan həll edib. Məktəblərdə kompüterləşmə problemi də öz həllini tapıb. İndi Naxçıvan Muxtar Respublikasının bütün məktəblərində, hətta ən ucqar dağ kəndindəki məktəbdə də internetdən istifadə olunur. Artıq bir neçə ildir ki, burada həftənin konkret bir günündə eyni dərs saatında internet vasitəsilə Naxçıvandakı muzeylərdən birində dərs keçirilir, hər yerdə həmin dərs elektron lövhədə izlənilir və müzakirə olunur. Beləliklə, həm də yeni nəsil muzeylərdə nümayiş etdirilən nadir materiallarla tanış olmaq imkanı qazanır. “Muzeydən-məktəbə” internet-dərs proqramı Azərbaycan təhsil sistemində tam yeni və çox faydalı layihədir. Bu yolla maarifçi xarakterli tədris materialı ilə tarix və mədəniyyət düşüncəsi birləşir. Yeni nəslin vətənpərvərlik tərbiyəsi və milli-mənəvi özünüdərk dünyagörüşü zənginləşir və daha da möhkəmlənir. Bundan başqa, Naxçıvan Muxtar Respublikasının ali təhsil müəssisələrində və Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində çalışan alimlərin hamısı ayda bir dəfə doğulduqları kəndlərdəki məktəblərdə açıq dərslər keçirlər. Şagirdlər akademiklərin, elmlər doktorlarının, fəlsəfə doktorlarının dərslərini dinləyir, onlardan suallarına cavab alırlar. Eyni zamanda, elm adamlarının da məktəblərlə normal əlaqələri formalaşır. Bunlar isə çox fayda verir. Həm yeni gənc nəsil inkişaf edir, həm də yerlərdə ziyalılığın səviyyəsi artır”.

İsa Həbibbəyli deyib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun təsdiq etdiyi “Oxunması zəruri olan kitabların siyahısı” Naxçıvanda ardıcıl olaraq aparılan təhsil islahatlarının məntiqi davamıdır. “Artıq kitab, internet və açıq dərs kompleks halında məktəblilərin formalaşmasında iştirak edəcək. Bu, Azərbaycanın yeni nəslinin bütün maraqlarının, daxili-mənəvi tələbatının ödənilməsinə xidmət edəcək. Onu da deyim ki, Qori Müəllimlər Seminariyasında da seminaristlərin mütaliə etməsi zəruri sayılan kitablara dair tövsiyələr tətbiq olunmuşdur. Bu, Azərbaycanın böyük bir görkəmli ziyalı nəslinin inkişafında mühüm rol oynayıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təsdiq etdiyi siyahıda gənc nəslin dövlətçilik və vətənpərvərlik tərbiyəsinə, habelə şəxsiyyət kimi formalaşmasına daha çox təsir edə biləcək kitablara üstünlük verilməsi müstəqil dövlətçilik idealları üstündə köklənmiş kamil Azərbaycan vətəndaşlarının daha yetkin səviyyədə formalaşdırılmasına kömək etmək məqsədi daşıyır. Zəruri ədəbiyyatın siyahısı azərbaycançılıq dünyagörüşünün inkişaf etdirilməsi üçün də istiqamətverici imkanlara malikdir”.

Komitə sədri hesab edir ki, siyahıdakı dünya ədəbiyyatının şedevrləri olan qiymətli əsərlər gənc yaşlarından dünyagörüşün zənginləşdirilməsi üçün düşünülmüş əhəmiyyətli addımdır: “Oxunması zəruri olan kitabların siyahısı” orta məktəb proqramında öyrənilməsi nəzərdə tutulmuş bədii əsərlərə qiymətli əlavədir. Yaxud da bu, tədris proqramlarında yer ala bilməyən ən zəruri kitablara diqqətin cəlb olunmasıdır. Siyahıda olan kitabların əksəriyyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı əsasında latın qrafikası ilə çap olunmuş əsərlərdir. Bu kitablar dövlətin qayğısı ilə bütün məktəb kitabxanalarına göndərilib. Yəni mütaliə edilməsi zəruri hesab olunan kitabları tapmaqda məktəblilər çətinlik çəkməyəcəklər. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamında oxunması zəruri olan kitabların siyahısının daim zənginləşdirilməsinə dair ayrıca bəndin olması bu prosesin gələcəkdə yaradıcılıqla davam etdirilməsini təmin edəcək. Bütün bunlara görə “Oxunması zəruri olan kitabların siyahısı” müasir dövrdə kitaba yenidən, həm də məqsədyönlü şəkildə qayıdışa çağırışdır. Bu çağırışın həyata keçirilməsi işığında ölkənin hərtərəfli inkişafa malik olan, vətəninə, xalqına və dövlətinə sadiq əsl vətəndaşların böyük gələcəyini görmək mümkündür”.

**Modern.az**
**31.08.2017**

## Bədii ədəbiyyat beynin gimnastikasıdır

### “Vasif Talıbovun bu sərəncamı gecə qaranlığında çaxan şimşək effekti verdi”

Bu yaxınlarda mətbuatda, internet saytlarında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun oxunması vacib bilinən kitablarla bağlı sərəncamı ilə tanış oldum. Söz var deyir: “İlan hər yerdə əyri gedər, öz yuvasına düz”. Əslində bu misalın lətifəsi olmasın, son vaxtlar bizi əyri yollara səmtləndirmək istəyənlər nə qədər desən çoxdur. Cənab Vasif Talıbovun geniş şəkildə yayılan bu sərəncamı heç olmasa öz yuvamıza düz girib çıxmağa bir işarədi, bir yönləndiricidi. Həqiqətin bir üzü var. Haqqa gedən yol birdir. Şeytana gedən yollardan başqa.

Vasif müəllimin bu sərəncamı gecə qaranlığında çaxan bir şimşək effekti verdi. Qaranlıq ən azı belə demək mümkünsə səksəndi. Bu da çox sevindirici haldır. Söhbət ondan getməməlidi ki, oxunması vacib bilinən, ancaq sərəncamda verilən əsərlərdi, bu cür qavrama yerindən yanlışdır. Təbii ki, dünya binyət olandan hər xalq öz maddi və mənəvi incilərini yaradıb dünyanın ixtiyarına verib. O da var ki, nə qədər çox bilsən, o qədərsən...

Bu sərəncam cəmiyyətə bir ismarıcdı, bir mesajdır. Böyük maddi-mədəni irs qoyan, tarixini şərəfləndirən bir xalq kimi bu gün mütaliədən uzaqlaşmağımız, kökdən-kömədən gen düşməyimiz ağrılı məsələdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzaladığı bu sərəncamın əhəmiyyəti misilsizdi, bütün gələrimizə aidiyyəti var. Müəllimlərimizə, məktəblərimizə, şagirdlərimizə düzgün yol göstərən sənəddir.

Yadımda təxminən belə qalıb, haradasa, hansı ölkədəsə yüksək vəzifə tutmaq istəyənlər ana dilindən imtahan verir. Şəxsin dünyəvi və ictimai bilik səviyyəsi yoxlanılır.

Bu gün bizim buna çox ehtiyacımız var. Vasif müəllimin bu sərəncamı dövləti və tarixi əhəmiyyət kəsb edir. Yerində atılmış, alqışlara layiq addımdır.

Unutmayaq ki, yüksək hisslər aşılayan bədii ədəbiyyatın oxunuşu həm də beynin gimnastikasıdır.

***Tahir TALIBLI***
***Əməkdar jurnalist***
**Moderator.az**
**13.09.2017**

## Yazarlarımız Vasif Talıbovun kitab sərəncamı haqqında nə düşünürlər? – SORĞU

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov oxunması zəruri olan kitabların siyahısı ilə bağlı müvafiq sərəncam imzalayıb. Sərəncama əsasən gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılmasına xidmət edən “Oxunması zəruri olan kitabların siyahısı” təsdiq edilib.

Buna uyğun olaraq təhsil və mədəniyyət müəssisələrinin kitabxanalarında müvafiq kitab guşələri yaradılmalıdır.

***Publika.az*** Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu təşəbbüsü ilə bağlı şair və yazıçıların fikirlərini öyrənib.

***“Mənfi sənsiz dərəcə” şeirlər kitabının müəllifi Aqşin Evrənin qənaətinə görə, Vasif Talıbovun bu addımı bəzi millət vəkillərinə, siyasilərə dərs olmalıdır:*** “Əvvəlcə onu deyim ki, Vasif Talıbovun bu gözəl addımını xüsusi təqdir və sevinclə qarşılayıram. Onun bu addımı daim mahiyyətsiz açıqlamaları, addımları ilə gündəmə gələn bəzi millət vəkillərinə, siyasilərə dərs olsun. Ümumiyyətlə, universitetlərdə də bu məcburiyyət tətbiq olunmalıdır. Çünki mütaliəli cəmiyyət cinayətdən, vəhşilikdən uzaq olur və ailəsinə, ölkəsinə, dünyaya faydalı fərd kimi yetişir. Siyahı məsələsinə gəldikdə isə burada çox möhtəşəm əsərlər var. Xüsusən Azərbaycan və dünya ədəbiyyatının şedevrlərini siyahıda görmək məndə bu əsərləri yenidən oxumağa həvəs yaratdı. Son illər ədəbiyyat adına atılmış ən gözəl addımlardan biridir. Əslində, bu cür qərarların verilməsi təbiidir, ancaq nadir hallarda gördüyümüz üçün bizdə “mifik olay” təsiri yaradır. Naxçıvandakı gəncliyi təbrik edərək, Vasif Talıbova minnətdarlıq edirəm”.

***Şair Emin Pirinin sözlərinə görə kitablara, mütaliəyə qayğı alqışlanasıdır:*** “Siyahıda kifayət qədər ciddi əsərlər var. Guşələrin yaradılması çoxdan edilməli və belə guşələr bundan sonra da artmalıdır. Bugünkü gündə kitaba qayğını, şablon ədəbiyyata sevgini nəzərə alsaq, bir çox ciddi əsərlərin bu formada oxudulmasını dəstəkləyirəm. Naxçıvan dünyanın bir nömrəli mütaliəli bölgəsinə çevrilir”.

**Publika.az**
**29.08.2017**

## Oxunması zəruri olan kitablar

***Naxçıvanda oxunması zəruri olan kitabların siyahısı müəyyənləşdirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bununla bağlı müvafiq sərəncam imzalayıb.***

***Sərəncama əsasən gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılmasına xidmət edən “Oxunması zəruri olan kitabların siyahısı” təsdiq edilib.***

***Kulis.az mövzu ilə əlaqədar sorğu keçirib. Cavabları təqdim edirik.***

***Aqil Abbas:*** Mən Vasif Talıbovla bir-iki saat söhbət eləmişəm. Vasif müəllim yüksək dünyagörüşünə sahibdir, çox mütaliəli adamdır. Konfutsidən üzü bəri hər şeydən xəbəri var. Nitşesindən, Şopenhauerindən tutmuş bütün filosofları, dünya ədəbiyyatını oxuyub. Mənə Konfutsidən elə sitatlar çəkirdi ki, mən heyran qalırdım. İndi bəzi adamlar sosial şəbəkələrdə tanımadan, bilmədən onun haqqında yazırlar. Halbuki Vasif müəllimin mütaliəsi, savadı çox böyükdür. Onun verdiyi siyahı da məcburi deyil. Sadəcə gənclərə tövsiyə edib ki, kitab oxuyun. Bundan gözəl nə ola bilər ki? Çox gözəldir. Siyahıda gənc nəslin vətənpərvərliyinin formalaşmasından söhbət gedir. Bu yazıçılarımız da gənclərin formalaşmasında rol oynaya bilərlər. Deyə bilərsiniz ki, siyahıda Tolstoy, Dostoyevski niyə yoxdur, amma Ostrovski var. Axı burda gənc nəslin milli kökə bağlılığından söhbət gedir, onun tərbiyəsindən, vətənpərvərliyindən. Dostoyevskini oxuyub necə vətənpərvər olmaq olar? Yaxud da tərbiyəli. Söz yox ki, Dostoyevski də, Tolstoy da böyük yazıçıdır. Ancaq bu siyahının mövzusuna uyğun deyillər.

***Murad Köhnəqala:*** Vasif Talıbov bir vaxtlar Naxçıvanda yas yerlərində israfçılığın qarşısını almaq üçün rəsmi sərəncam imzalamışdı, onda çox sevinmişdim. İndi isə Naxçıvan əhalisinin oxumalı olduğu bədii kitabların siyahısını tərtib etdirib. Əla! Eşq olsun! Çox sevindim. Uzun illər muxtar respublikada rəhbərlik edən Vasif müəllim yaxşı bilir ki, bu milləti işıqlı yerlərə zorla itələmək lazımdı. Yoxsa özbaşına buraxsan saqqal buraxıb şalvar gödəltməkdən, qadınları qara çadraya bürüməkdən, yaxud min ilin ölüsü üçün baş yarmaqdan başqa bir şey eləməyəcəklər. Ancaq hörmətli Vasif müəllimin təklif elədiyi kitablardan oxuyan əhalinin mütaliəyə alışaraq başqa kitablar da axtaracağına əminəm.

**Kulis.az**
**29.08.2017**

## Bütün dünya üçün nümunəvi addım

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə “Oxunması zəruri olan kitabların siyahısı” təsdiq olunub və siyahıya 30 kitab daxil edilib. Böyük Britaniyanın nüfuzlu BBC korporasiyası bununla bağlı məlumat hazırlayıb. Yazıda qeyd olunur ki, Ali Məclisin Sədri Vasif Talıbovun bu sərəncamı ictimai-mədəni, ədəbi-bədii müstəvidə mühüm əhəmiyyətli və təqdirəlayiq bir hadisədir.

BBC Azərbaycan ədəbiyyatının seçmə nümunələri ilə yanaşı, dünya ədəbiyyatının məşhur yazarlarının da əsərlərinin siyahıya daxil edilməsinə də diqqət çəkib. Vurğulanır ki, Teodor Drayzer, Cek London, Ernest Heminquey, Nikolo Makiavelli, Gi de Mopassan, Antuan de Sent-Ekzüperi, Nikolay Ostrovski, Moris Meterlink kimi dünya klassiklərinin də əsərlərinin siyahıda yer alması diqqət çəkir.

Qeyd olunur ki, oxunması zəruri olan bu kitablar gənc nəsildə vətənpərvərliyin, tarixə, milli köklərə bağlılığın formalaşdırılmasına əsaslı təsir göstərəcək ideoloji mənbələr rolunu oynayır, onların kənar təsirlərdən qorunması üçün dünyagörüşünü zənginləşdirir, dövlətə, dövlətçiliyə, Vətənə, xalqa bağlılıq hisslərini aşılayır.

BBC xüsusilə Nikolo Makiavellinin “Hökmdar” əsərinin tövsiyə edilməsinə diqqət çəkir. Bildirilir ki, siyasətçilər, o cümlədən elm xadimləri “Hökmdar” əsərinin bura daxil olmasını rəğbətlə qarşılayırlar. Çünki Makiavelli və onun “Hökmdar” əsəri həmişəlik olaraq bəşəriyyətin yaddaşında qalıb, dərin ideya və fikirlərə görə bu əsər dünya mədəniyyəti xəzinəsinə daxil olub. Makiavelli sözügedən əsərdə bir çox məsələlərlə bərabər, səxavət və qənaət, qəddarlıq və mərhəmət, məhəbbət və nifrət, habelə digər bu kimi anlayışları diqqətlə təhlil edir. Bütün bu anlayışları açıqlayıb, bunlara yeni mənalar verir. Qəddarlıq və məhəbbət anlayışlarını təhlil edərkən Makiavelli göstərir ki, hər bir adam qəddar adam kimi yox, mərhəmətli adam kimi tanınmaq istərdi. Amma o, dərhal da qeyd edir ki, hökmdar əgər təbəələri itaətdə saxlamaq istəyirsə, o, qəddar adam kimi tanınmaqdan çəkinməməlidir. Bir neçə adamı cəzalandırmaq iğtişaşlara yol verməkdən daha yaxşıdır, çünki qəratlərə və qətllərə səbəb olan iğtişaşlardan bütün insanlar ziyan çəkdiyi halda, hökmdarın verdiyi cəzadan yalnız bir neçə adam ziyan çəkir.

BBC həmçinin yazıda sosial şəbəkə istifadəçilərinin də fikirlərinə yer verib və bədii ədəbiyyatların mütaliəsi ilə bağlı bu təşəbbüsün bütün dünya üçün nümunə gücündə olduğunu qeyd edib.

Yazıda həmçinin Naxçıvan Muxtar Respublikası barədə də məlumatlar yer alıb.

**BBC News**
**30.08.2017**

# Prezident təqaüdçüləri

### Fərəcova Günnar Yaşar qızı



Fərəcova Günnar Yaşar qızı 1999-cu ildə Naxçıvan şəhərində anadan olub. 2010-cu ildə Naxçıvan Qızlar Liseyinə qəbul olunub. 2017-ci ildə Naxçıvan Qızlar Liseyinin XI sinfini fərqlənmə attestatı ilə bitirib. III qrup üzrə ali məktəblərə qəbul imtahanında iştirak edərək 691 bal toplayıb. Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsinə qəbul olunub. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 sentyabr tarixli Sərəncamı ilə Prezident təqaüdünə layiq görülüb.

### Əsgərov Əli Zaman oğlu



Əsgərov Əli Zaman oğlu 4 iyul 2000-ci ildə Culfa rayonunun Yaycı kəndində anadan olmuşdur. O, 2006-cı ildə Culfa rayon Yaycı kənd 1 nömrəli tam orta məktəbin birinci sinfinə daxil olmuş, 2017-ci ildə həmin məktəbi bitirmişdir. Əli Əsgərov ali məktəblərə qəbul imtahanında I qrup üzrə 690 bal toplayaraq Bakı Ali Neft Məktəbinin Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasına daxil olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 sentyabr tarixli Sərəncamına uyğun olaraq Prezident təqaüdünə layiq görülüb.

### Nəcəfli Novruz Nadir oğlu



Nəcəfli Novruz Nadir oğlu 23 avqust 2000-ci ildə Culfa rayonunun Yaycı kəndində anadan olmuşdur, 2006-cı ildə Culfa rayon Yaycı kənd 2 nömrəli tam orta məktəbin birinci sinfinə daxil olmuş, 2017-ci ildə həmin məktəbin 11-ci sinfini bitirmişdir. Ali məktəblərə qəbul imtahanında IV qrup üzrə 685 bal toplayaraq Azərbaycan Tibb Universitetinin Müalicə işi ixtisasına daxil olmuşdur. Novruz Nəcəfli Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 sentyabr tarixli Sərəncamına əsasən Prezident təqaüdünə layiq görülüb.

*15 sentyabr Bilik Günüdür*

# Təhsil cəmiyyətin inkişafının əsas amilidir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 21 avqust tarixli Fərmanı ilə hər il sentyabrın 15-i ölkəmizdə Bilik Günü kimi qeyd olunur.***







Ötən əsrin 70-ci illərində ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilən təhsil strategiyası Azərbaycanda ixtisaslı milli kadrların hazırlanmasının əsasını qoymuş, iqtisadi potensial inkişaf etdirilmiş, sosial-mədəni, elm-təhsil və milli-mənəvi dəyərlər dirçəldilmiş, bu yolla gələcək müstəqillik üçün etibarlı zəmin yaradılmışdır. Dahi şəxsiyyət ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra da təhsilin inkişafını dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirmiş, bu sahədə kompleks islahatlar həyata keçirilmişdir. Ölkə başçısı cənab İlham Əliyev tərəfindən də təhsil sistemində yenidənqurmanın həyata keçirilməsi, həm təhsil alanlar, həm də təhsil verənlər üçün əlverişli şəraitin yaradılması, təhsilin inkişafı istiqamətində dövlət proqramları və sərəncamların imzalanması təhsilimizin daha da inkişaf etdirilməsinə xidmət göstərir.

Bu gün Naxçıvan Muxtar Respublikasında da təhsil özünün tərəqqi dövrünü yaşayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təhsilə göstərdiyi qayğı və diqqət, pedaqoji kadr hazırlığındakı təkmilləşmələr, təhsilin məzmununa dövrün tələbləri baxımından yanaşılması, fənn kurikulumları və təhsil standartlarının tətbiqi, yeni texnologiyalara tədris prosesində geniş yer verilməsi, distant təhsilin reallaşdırılması, beynəlxalq təcrübədən yaradıcı şəkildə istifadə olunması təhsil sahəsində uğurların qazanılmasına şərait yaratmışdır. Ümumtəhsil məktəblərində 600-dən çox elektron lövhə quraşdırılmış və təhsil müəssisələrinə 4242 dəst kompüter verilmişdir ki, onların da 3339-u internet şəbəkəsinə qoşulmuşdur.

Muxtar respublikada təhsilin inkişafına göstərilən yüksək diqqət və qayğının nəticəsidir ki, son illər 200-ə yaxın təhsil müəssisəsi tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuşdur. Cari ildə də tikinti-quruculuq işləri davam etdirilmiş, 2017-ci ilin birinci yarımili ərzində 2716 şagird yerlik beş tam orta məktəb, "İstedad-XXI əsr" hazırlıq kursları üçün yeni binalar istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 20 iyun tarixli "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamından irəli gələn məsələlərin həlli istiqamətində həyata keçirilən tədbirlər nəticəsində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələrin təşkili həyata keçirilir. Muxtar respublikamızda ümumtəhsil məktəblərinin kitabxana şəbəkələrinin genişləndirilməsi, onların maddi-texniki bazalarının gücləndirilməsi və şagirdlərin dərsliklərlə təminatı da diqqət mərkəzində saxlanılır. 2017-ci ilin avqust ayında 145 min 949 nüsxə dərslik və 6271 nüsxə müəllim vəsaiti, 627 min 643 nüsxə latın qrafikası ilə çap olunmuş bədii ədəbiyyat, jurnal və məcmuə təhsil müəssisələrinin kitabxanalarına verilmişdir. Gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə "Oxunması zəruri olan kitabların siyahısı" təsdiq edilmişdir. Sərəncama uyğun olaraq bütün təhsil müəssisələrinin kitabxanalarında həmin kitablardan ibarət guşələr yaradılır.

Məktəblərdə müasir maddi-texniki bazanın formalaşdırılması təhsildə mütərəqqi üsulların tətbiqinə geniş imkanlar açmışdır. Bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın tarixi, mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələr təşkil edilir, gənclər elmi biliklərlə yanaşı, milli-mənəvi dəyərlərimizi, tariximizi, mədəniyyətimizi ən mütərəqqi üsullarla mənimsəyirlər.

Muxtar respublikamızda sağlamlıq imkanları məhdud uşaqların təhsili də diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın tələblərinə uyğun olaraq 2016-2017-ci tədris ilində ümumtəhsil məktəblərinə 942 sağlamlıq imkanı məhdud uşaq cəlb edilmişdir. Muxtar respublikada 86 sağlamlıq imkanı məhdud uşaq məktəbdənkənar tərbiyə müəssisələrinə cəlb olunmuşdur. Onlardan 24-ü şahmat məktəblərinin dərnəklərinə, 13-ü isə müxtəlif idman qruplarına, hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən 24 şagird distant təhsilə cəlb edilmişdir.

Təhsil müəssisələrinin pedaqoji kadrlarla təminatı sahəsində də ardıcıl tədbirlər həyata keçirilir. Hər il təhsil yarmarkalarının təşkil edilməsi bu istiqamətdə atılan ən mühüm addımlardandır. Bu il avqustun 25-26-da da növbəti təhsil yarmarkası keçirilmiş, gənc kadrlar ümumtəhsil məktəblərində pedaqoji fəaliyyətə başlamışdır. Bütün bunlar məktəblərin pedaqoji kadr təminatının yerinə yetirilməsi ilə yanaşı, həm də gənclərin məşğulluğunun təmin olunmasına mühüm töhfə verir.

Təhsilin inkişafı istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikamızın məzunlarının buraxılış imtahanlarında yüksək nəticələr əldə etmələrinə şərait yaratmışdır. Şagirdlərin təhsilə marağı artmış, ali və orta ixtisas məktəblərinə həm sənədvermə, həm də qəbulun nəticələri ilbəil yaxşılaşmışdır. Belə ki, bu il Heydər Əliyev adına Hərbi Liseyin məzunları ilə birgə ali hərbi məktəblərə və digər ali təhsil müəssisələrinə sənəd verənlərin sayı 2399 nəfər olmuşdur. 2017-ci ildə cari ilin məzunlarından 1368-i ali təhsil müəssisələrinə, 239-u müxtəlif ali hərbi və xüsusi təyinatlı ali məktəblərə, 251-i isə tam orta təhsil bazasından orta ixtisas məktəblərinə qəbul olunmuşdur ki, bu da sənəd verənlərin 73,1 faizini təşkil edir. Əvvəlki illərin məzunlarından isə 128-i ali məktəblərə qəbul olmuşdur. 2017-ci ildə ali məktəblərə qəbul imtahanlarında 4-ü əvvəlki ilin məzunu olmaqla, 289 nəfər 500-700 arası bal toplamışdır.

Bu gün Naxçıvan Muxtar Respublikasında təhsilin bütün pillələri üzrə inkişaf təmin edilmişdir. Orta məktəblərlə yanaşı, orta ixtisas, peşə və ali məktəblər üçün də yeni binalar tikilib istifadəyə verilmiş, müasir tədris şəraiti yaradılmışdır. Bununla yanaşı, məktəbəqədər və məktəbdənkənar tərbiyə müəssisələrinin fəaliyyəti də təmin edilmişdir.

*Təbii ki, bütün sadalananların arxasında insan amili, onun qloballaşan dünyanın tələbləri səviyyəsində təhsil almasına hədəflənmiş diqqət və qayğı dayanır. Təhsil isə cəmiyyətin inkişafında başlıca amildir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***"Bu gün dünyada o ölkələr inkişaf edərək irəli gedirlər ki, orada təhsilə daha çox sərmayə qoyulur. Çünki təhsilə qoyulan sərmayə xalqların və ölkələrin gələcəyinə qoyulan sərmayədir. Vətənpərvər gənclik isə o gələcəyin ən etibarlı təminatçısıdır. Əgər ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə yetişən gənclik müstəqil Azərbaycanın bugünkü inkişafını təmin etmişdirsə, bu gün yetişən gənclik də bu inkişafın gələcəkdə davamının təminatçıları olacaqdır".***

**"Şərq qapısı"**

# Mədəniyyət sahəsində tədbirlər avqust ayında da davam etdirilib

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi avqust ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarından, qəbul edilmiş dövlət proqramlarından irəli gələn vəzifələrin icrasını diqqət mərkəzində saxlamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamının icrası ilə bağlı iş aparılmış və nazirliyin sistemində daxil olan kitabxanalarda müvafiq kitab guşələri yaradılmışdır.*

Avqust ayında muzey bələdçilərinin peşə biliklərinin artırılması məqsədilə Hüseyn Cavidin ev-muzeyində, Heydər Əliyev Muzeyində muzey bələdçiləri üçün seminar-treninqlər keçirilmiş, muzeylərin fond mühafizlərinin Naxçıvan Dövlət Tarix Muzeyində təcrübə məşğələləri davam etdirilmişdir. Muzey fondlarının yeni eksponatlarla zənginləşdirilməsi də diqqət mərkəzində saxlanılmış, muzeylərə 76 yeni eksponat daxil olmuşdur. Naxçıvan Dövlət Xalça Muzeyində muzey fondlarının zənginləşdirilməsində səmərəli fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyevlə görüş keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" 2014-cü il 19 dekabr tarixli Sərəncamına uyğun olaraq tərtib edilmiş qrafikə əsasən ay ərzində muxtar respublikada fəaliyyət göstərən 40-dan çox nazirlik, komitə və baş idarələrin, ali və orta ixtisas təhsili müəssisələrinin, idman federasiyalarının, sahibkarlıq subyektlərinin, taksi sürücülərinin muzeylərlə tanışlığı təmin edilmişdir. Ötən ay muzeyləri 41 mindən çox tamaşaçı ziyarət etmişdir ki, onun da 11 mindən çoxu xarici ölkə vətəndaşı olmuşdur.

Avqust ayında kitabxanalarda "Kitabxanaçı günü", "Nağıl günləri", "Mütaliə günləri" ilə bağlı tədbirlər davam etdirilmişdir. Ümumilikdə, 47 mədəni kütləvi tədbir keçirilmiş, 20 sərgi təşkil olunmuşdur. Kitabxanalara 13 mindən çox oxucu gəlmişdir ki, onun da 287-si yeni üzv olanlardır.

Muxtar respublikanın turizm potensialının təbliği də diqqətdə saxlanılmış, Turizm İnformasiya Mərkəzinin "Facebook" sosial şəbəkəsindəki səhifəsində 106, "Youtube" videoportalındakı kanalında 22 məlumat-videoçarx yerləşdirilmişdir. Azərbaycanın digər bölgələrində fəaliyyət göstərən turizm informasiya mərkəzlərinə və turizm şirkətlərinə, həmçinin xarici ölkələrə muxtar respublikanın turizm imkanları ilə bağlı materialların göndərilməsi də diqqət mərkəzində saxlanılmış, 10-dan çox xarici ölkəyə, Azərbaycanda fəaliyyət göstərən 183-dən çox turizm şirkətinə və bölgələrdə yerləşən 13 turizm informasiya mərkəzinə, ümumilikdə, 225 məlumat göndərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

## Xalq Çalğı Alətləri Orkestrinin konserti



*Muxtar respublikamızda Milli Musiqi Günü ilə bağlı tədbirlər davam edir. Bu münasibətlə Naxçıvan Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri Orkestrinin Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində konserti olub.*

Aparıcı bildirib ki, artıq bir neçə gündür, qədim diyarımızın paytaxtında və rayon mərkəzlərində Milli Musiqi Günü ilə əlaqədar tədbirlər və konsertlər təşkil olunur.

Qeyd edilib ki, Naxçıvan Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri Orkestri filarmoniya yaradılarkən onun tərkibində fəaliyyətə başlayan ilk orkestrlərdən biri olub. Kollektivin tanınmış müğənni və xanəndələrinin ifalarını musiqisevərlər həmişə rəğbətlə qarşılayırlar. Bu gün də kollektiv yeni repertuarla musiqisevərlərin görüşünə gəlib. Orkestrin bədii rəhbəri Azərbaycan Respublikasının Əməkdar artisti Elman Əliyevdir.

Orkestr dahi Üzeyir Hacıbəyovun "Koroğlu" operasından "Uvertüra" və "Cəngi"ni ifa edib. Gənc müğənni İlkin Abdullayev Asəf Zeynallının Cəfər Cabbarlının sözlərinə yazdığı "Ölkəm", Süleyman Ələsgərovun Füzulinin sözlərinə yazdığı "Vətənimdir", Üzeyir Hacıbəyovun dahi şairimiz Nizaminin sözlərinə yazdığı romanslarını ifa edib. Azərbaycan Respublikasının Əməkdar artistləri Gülyanaq Fərzəliyeva Niyazinin "Vətən nəğməsi"ni, Mübariz Əsgərov isə Qəmbər Hüseynlinin "Ömrümün yazısan" mahnısını oxuyublar.

Sonra orkestr böyük bəstəkarımız Qara Qarayevin "Yeddi gözəl" baletindən "Aişənin rəqsi" musiqisini səsləndirib. Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Azər Cəfərli bəstəkar Səid Rüstəmovun lirik "Qurban adına" mahnısını, Azərbaycan Respublikasının Əməkdar artisti Tural Nəcəfov isə Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettasından "Əsgərin ariyası"nı ifa ediblər.

Konsertdə müğənnilər Qəribə Həsənova və Nərmin Hüseynova Ramiz Mirişli, Tofiq Bakıxanov və başqalarının musiqi əsərlərini səsləndiriblər.

Konsert musiqisevərlərdə xoş ovqat yaradıb.

Muxtar respublikamızda Milli Musiqi Günü ilə bağlı konsertlər davam etdirilir. Növbəti konsert proqramı dünən Ordubad Rayon Mədəniyyət Evində təşkil edilib.

**Əli RZAYEV**

## İxtisasartırma kurslarında tədris davam etdirilir



Bu il avqustun 26-da Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Ali Məclisin Sədri "Naxçıvanqaz" İstehsalat Birliyinə qaz təsərrüfatında, xüsusilə qaza xidmətində çalışanların peşəkarlıq səviyyəsinin yüksəldilməsi məqsədilə onların ixtisas hazırlığına cəlb olunmasına diqqətin artırılması ilə bağlı tapşırıq verib.

Hazırda "Naxçıvanqaz" İstehsalat Birliyinə tabe şəhər, rayon qaz istismar idarələrində, qaz təsərrüfatında, xüsusilə qaza xidmətində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə onların ixtisas hazırlığına qrup halında cəlb olunmaları təşkil edilir. Fəaliyyətə başladığı gündən indiyədək Naxçıvan Regional Peşə Tədris Mərkəzində sözügedən ixtisasartırma kurslarına 55 nəfər işçi cəlb olunub. Cari ilin sentyabr ayında növbəti kursa başlanılıb. Kursun tədris müddəti iki aydır. Burada dərsləri "Naxçıvanqaz" İstehsalat Birliyinin aparıcı mühəndisi Vaqif İsmayılov tədris edir. Kursun sonunda müdavimlər ilk peşə-ixtisas təhsili haqqında sertifikat alacaqlar.

Qeyd edək ki, qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşəsinə yiyələnən işçilər qaz kəmərlərində, onların üzərində quraşdırılan qurğu və avadanlıqlarda, evdaxili qaz avadanlıqlarına texniki baxış və profilaktik qulluq edilməsi zamanı yerinə yetirilən işlərdə, qəzaların ləğvi və məhdudlaşdırılması işlərində, sənaye, kənd təsərrüfatı və kommunal müəssisələrin qaz avadanlıqlarının istismarında və digər əhəmiyyətli işlərdə çalışırlar.

İstehsalatın daha da inkişaf etdirilməsi, effektivliyin yüksəldilməsi və elmi-texniki tərəqqinin sürətləndirilməsinin qarşıya bir məqsəd kimi qoyulduğu müasir zamanda ixtisasartırma kurslarının təşkili də öz töhfəsini verəcəkdir. Məhz bu sahəyə göstərilən dövlət qayğısı nəticəsində qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşəsinin ixtisasartırma kurslarının təşkili qaz təsərrüfatında texniki istismar və texniki təhlükəsizlik qaydalarının tələblərinə riayət etməklə təbii qazın səmərəliliyinə, peşəkar ixtisaslı işçi qüvvəsinin artırılmasına, həmçinin görülən işlərin keyfiyyətinin yüksəldilməsinə güclü zəmin yaradacaqdır.

***"Naxçıvanqaz" İstehsalat Birliyinin mətbuat xidməti***

## *"Naxçıvan"* komandası ard-arda altı qələbə qazanıb

Muxtar respublikada gənclər siyasəti uğurla həyata keçirilir. Bu siyasətin əsas istiqamətlərindən biri də gənclərin intellektual səviyyələrinin yüksəldilməsi və onların dünyagörüşlərinin formalaşdırılmasıdır. Bu çərçivədə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi mütəmadi olaraq intellektual oyunlar, bilik yarışları təşkil edir. Keçirilən yarışlarda fəal iştirak edən gənclərimiz muxtar respublikamızı Azərbaycan çempionatlarında, birinciliklərdə və digər intellektual oyunlarda layiqincə təmsil edirlər.

Sentyabrın 10-da QeymTV.az-ın təşkilatçılığı, "Nar Mobile"nin sponsorluğu, Kapital Bankın maliyyə dəstəyilə reallaşdırılan "Breyn Rinq" oyununun X yubiley mövsümü keçirilib. Oyunda Tural Məmmədzadə (kapitan), Təbriz Eyvazlı, Camal Cümşüdlü, Hüseyn Həsənov, Vaqif Məmmədov, Qafar Cəfərzadə, Anar Qurbanov (ehtiyat oyunçu) tərəfindən təşkil olunmuş "Naxçıvan" komandası muxtar respublikanı layiqincə təmsil edib. Belə ki, gənclər sentyabr ayının ikinci seçim oyununda Şəki, Füzuli, Ağdaş, Lənkəran, Bərdə və Ağcabədi komandalarına qalib gələrək ard-arda 6 görüşdə qələbə qazanıb və sentyabr ayının final mərhələsində oynamaq hüququ əldə ediblər.

*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin Üzgüçülük Mərkəzində məktəbli yeniyetmə və gənc qızlar arasında üzgüçülük üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.*

## Üzgüçülük üzrə şəhər birinciliyi keçirilib

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin birgə təşkil etdiyi yarışda 3 yaş qrupunda 25-ə yaxın idmançı mübarizə aparıb.

Üzgüçülüyün sərbəst üsulu üzrə 25 metr məsafədə keçirilən yarışın yekununa əsasən 2002-2003-cü illər təvəllüdlü idmançılar arasında Günel Fətullayeva, 2004-2005-ci illər təvəllüdlü üzgüçülər arasında Tutu Nəsirli, 2006-2008-ci illər təvəllüdlü idmançılar arasında isə Gülan Əhmədova bütün rəqiblərini qabaqlayaraq finiş xəttinə hamıdan öndə çatıblar.

Sonda hər üç yaş qrupunda yer tutan idmançılar Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları ilə təltif olunublar.

*Bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda təhsilin inkişafına xüsusi diqqət və qayğı göstərilir. Təhsil müəssisələri üçün müasir üslubda yeni inzibati binalar tikilir, tədris ocaqları üçün zəruri olan şərait yaradılır, ən yeni texnologiyalar tədris prosesində tətbiq olunur.*

## Təhsil müəssisələrində yanğın təhlükəsizliyi tədbirləri diqqət mərkəzində saxlanılır

Təhsil müəssisələrinin inzibati binalarını, əmlakını mühafizə etmək, o cümlədən onları yanğından qorumaq Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin qarşısında duran əsas vəzifələrdən biridir. Bu səbəbdən idarənin əməkdaşları tərəfindən Naxçıvan şəhəri və rayonlarda yerləşən ümumtəhsil və tam orta məktəblərin, liseylərin, universitetlərin və uşaq bağçalarının inzibati binalarında yanğından mühafizə tədbirlərinin aparılması məqsədilə baxışlar keçirilib. Baxışlar zamanı binalarda mövcud olan yanğınsöndürmə vasitələrinin, daxili yanğın su kranlarının və odsöndürücü balonların vəziyyəti yoxlanılıb, onların istifadə və tətbiqi qaydaları praktik olaraq təhkim olunmuş cavabdeh şəxslərə öyrədilərək izahat işləri aparılıb. Eləcə də görülən işlərin davamı olaraq təhsil müəssisələrində və uşaq bağçalarında qış mövsümü dövründə qaz və elektrik təsərrüfatından düzgün istifadə olunması, xüsusən istilik sistemi olmayan və neft sobaları ilə qızdırılan məktəblərdə sobaların yanğın təhlükəsizliyi qaydalarının tələblərinə uyğun qurulması və onların istifadəsi, istismarı zamanı təhlükəsizlik qaydalarına riayət olunması haqqında ətraflı məlumatlar verilərək izahat işləri aparılıb.

Hər bir müəssisədə olduğu kimi, təhsil müəssisələrində də yanğın təhlükəsizliyi tədbirlərinin düzgün həyata keçirilməsi, qaz və elektrik təsərrüfatının mövcud olduğu sahələrdə texniki təhlükəsizlik və yanğın təhlükəsizliyi qaydalarına əməl olunması qarşıda duran vəzifələrdən biridir. Bu sahələrlə yanaşı, həmçinin iş günü və dərslər qurtardıqdan sonra növbətçi işıqlandırma və qurğuları istisna olmaqla, bütün elektrik qurğu və cihazların dövriyyədən ayrılması, həmçinin mövcud yanğınsöndürmə qurğuları və vasitələrinin daim istifadə üçün yararlı vəziyyətdə saxlanması ilə bağlı müəssisələrin işçi kollektivi ilə maarifləndirici söhbətlər aparılıb.

Qarşıdan payız-qış mövsümü gəlir. Məhz bu mövsüm ərzində təhsil müəssisələrində yanğın təhlükəsizliyi tədbirlərinin həyata keçirilməsi diqqət mərkəzində saxlanılmalıdır. Bütün inzibati binalarda olduğu kimi, təhsil müəssisələrində də mövsümə hazırlıqla bağlı bir sıra zəruri tədbirlər həyata keçirilməlidir. Belə ki, qış mövsümü başlanmazdan əvvəl bütün isitmə qurğuları, cihazları diqqətlə yoxlanılmalı, zərurət olarsa, təmir edilməlidir. Nasaz soba və isitmə cihazlarının istismar olunmasına yol verilməməlidir. Qazanxanalarda qurğulara texniki xidmət göstərilməli, nasaz cihaz və avadanlıqlar təmir olunmalı və ya yenisi ilə əvəz edilməli, qazanxanaların yanğın təhlükəsizliyi üçün zəruri tədbirlər görülməli, aidiyyəti olmayan işlərin görülməsi, qazanxana otağına yanar materiallar və müxtəlif əşyaların yığılması, həmçinin kənar şəxslərin daxil olması qadağan edilməlidir.

Təhsil müəssisələrində və uşaq bağçalarının qazanxana otağında, qazdan istifadə olunan digər yerlərdə qaz boru xətlərindən, birləşmə yerlərindən və ventillərdən qazın sızmasını yoxlayarkən açıq oddan istifadə etmək qəti qadağandır. Bunu yalnız xüsusi cihazlar və ya sabun məhlulu vasitəsilə etmək lazımdır. Əgər qazın sızması qaz kəmərinin və ya qaz cihazının zədələnməsindən meydana gəlmişsə, onda qazdan istifadə etmək olmaz və təcili Qaz İstismar İdarəsinin qəza xidməti ***(104)*** ilə əlaqə saxlanılmalı, bu barədə məlumat verilməlidir.

İstilik sistemləri olmayan və neft sobaları ilə qızdırılan təhsil və məktəbdənkənar tərbiyə müəssisələrində sobalardan istifadə zamanı yanğın təhlükəsizliyi qaydalarına ciddi fikir verilməlidir. Belə ki, neft sobaları ilə qızdırılan sinif otaqlarında təlimata uyğun olaraq sobanın altlıq hissəsi ən azı (50x70 sm) ölçüdə metal təbəqə ilə təmin olunmalıdır. Sobaların altlıq hissəsinə qum doldurulmalı və əlavə olaraq qabda yanğın və alışmaların qarşısının alınması üçün qum ehtiyatı yaradılmalıdır.

Sobanın yandırılması üçün nəzərdə tutulmayan benzin, dizel yanacağından, digər tez alışan mayelərdən istifadə etmək, həmçinin yanacağı bilavasitə sobanın odluq hissəsinin qarşısında saxlamaq və yanar sobanı nəzarətsiz qoymaq qadağandır. Nasaz sobalardan və tüstü borularından istifadə etmək yanğın təhlükəli olduğundan yolverilməzdir. Tüstü bacaları və boruları ayda iki dəfədən az olmayaraq təmizlənməlidir. Sobanın tüstü borusunun çardaqdan keçən hissəsi yanmayan asbest material ilə mühafizə edilməli və tüstü borusu binanın dam örtüyündən 70 santimetr hündürlükdə olmalıdır. Sobaların və tüstü borularının vaxtında təmizlənməməsi səbəbindən bir çox hallarda dəm qazından zəhərlənmə və yanğının baş verməsi ilə nəticələnə bilər. Təhsil müəssisələrində yandırılan hər bir sobaya cavabdeh şəxs təyin etməli və yanğına qarşı təlimatlandırılmalıdır.

İş gününün sonunda bütün xidməti və sinif otaqlarında sobalara baxış keçirilməli, onların tam söndürülməsi təmin edilərək mühafizəyə təhvil verilməli və təhlükəsizlik tədbirləri gücləndirilməlidir.

*Yuxarıda qeyd olunanlarla bağlı hər hansı bir yanğın hadisəsi baş verərsə, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin* ***112*** *qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin* ***101*** *xidməti telefonlarına zəng etməyi unutmayın.*

**Mirtaleh SEYİDOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı***

## İdman məktəbi yeni avadanlıqlarla təmin olunub

Bu gün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafı istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir ki, bu da özünü əldə olunan uğurlu nəticələrdə göstərir. Ötən illər ərzində idman infrastrukturu yenilənib, maddi-texniki baza gücləndirilib. Hazırda muxtar respublikamızın bütün bölgələrində dünya standartlarına cavab verən Olimpiya-İdman kompleksləri, idman zalları tikilib istifadəyə verilib, ölkədə qısa müddətdə güclü idman infrastrukturu yaratmağın Naxçıvan modeli formalaşıb.

Bunun səbəbi isə mütəmadi olaraq idmanın və idmançıların diqqətdə saxlanılmasıdır. Naxçıvanda fəaliyyət göstərən idman obyektləri, demək olar ki, hər il yeni avadanlıqlarla təmin olunur. Bunlardan biri də Naxçıvan şəhər İslam Hümbətov adına



Uşaq-gənclər idman məktəbidir. Sərbəst, yunan-Roma güləşi, cüdo və sambo idman növlərini uşaq və gənclərə öyrədən məktəb yenidən təmir olunub. Hazırda məktəbin zalında təmir işləri başa çatıb, burada idman avadanlıqları qurulub. Həmçinin zal yeni cüdo tatamisi ilə təmin edilib.

Qeyd edək ki, bu gün məktəbdə 500-ə yaxın uşaq və yeniyetmə 4 idman növü ilə məşğul olur.

**✍ Ceyhun MƏMMƏDOV**


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Hüseynov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1000. Sifariş № 732